IMPERIAL BRANDS

# İNSANLARI VƏ PLANETİMİZİ QORUYAN BİZNES METODLARINA RİAYƏT EDİLMƏSİNƏ DAİR ÜMUMİ ÖHDƏLİK



## TƏCHİZATÇILARIMIZ ÜÇÜN DAVRANIŞ KODEKSİ

# TƏCHİZATÇILARIMIZ ÜÇÜN
# DAVRANIŞ KODEKSİ

## “Imperial Brands” şirkəti olaraq etik normalara riayət edən etibarlı tərəfdaş və sifarişçi kimi qlobal reputasiyamız ən dəyərli aktivlərimizdən biridir.



Biz insanlara, fəaliyyət göstərdiyimiz icmalara və planetimizə hörmətlə yanaşaraq etdiyimiz hər şeydə məsuliyyətlə hərəkət etməyə çalışırıq.

Bu ambisiyalara nail olmağımızı təmin etmək üçün qəti hədəflərimiz var və bu öhdəliyin bir hissəsi məhsul və xidmətləri tələblərə uyğun, dayanıqlı və sosial cəhətdən məsuliyyətli şəkildə əldə etmək üçün etibarlı təchizatçılarla işləməkdən ibarətdir.

Təchizatçılar üçün bu Davranış Kodeksində “Imperial Brands” şirkətinin bütün təchizatçılarından gözlədiyimiz minimum davranış standartları müəyyən edilir. O, ESİ (ekoloji, sosial, idarəetmə) strategiyamız çərçivəsində qəbul etdiyimiz dayanıqlı inkişaf öhdəliklərini əks etdirmək üçün 2023-cü ildə yenilənmişdir.

Ambisiyalarımız minimum standartlarla məhdudlaşmır. Biz Kodeksi poza biləcəyini düşündüyümüz fəaliyyətləri aradan qaldırmağa çalışacağıq və birlikdə sosial sahəyə və ətraf mühitə müsbət təsir göstərə bilmək üçün bütün təchizatçılarımızı bu Kodeksdə qeyd olunan gözləntilərdən də artıq nəticələr nümayiş etdirmək üçün imkanlar axtarmağa təşviq edirik.

Həmçinin, sizi həqiqətən narahat edən probleminiz olduqda və ya qanun pozuntusuna yol verildiyindən şübhələndikdə, bu barədə açıq danışmağınızı xahiş edirik. Bizimlə aşağıdakı ünvan vasitəsilə əlaqə saxlaya bilərsiniz:

**Imperial Brands Plc, 121 Winterstoke Road,**
**Bristol BS3 2LL, United Kingdom**
**Tel: +44 (0) 117 963 6636**
**Email:** SpeakUp@impbrands.com

ITGB-nin məlumat vermə üçün ayrıca xətti var:

**ITG Brands Speaking Up**
**714 Green Valley Road**
**Greensboro, NC 27408**
**Tel: +1 866 447 6092**

Və ya sizi narahat edən probleminizi onlayn ‘Speaking Up’ xidmətimizdən istifadə edərək məxfi şəkildə bildirin.

Biz bu istiqamətdə hərəkət edərək müsbət dəyişikliklər etmək əzmindəyik. Bizə qoşulun.

**Javier Huerta**
Təchizat zənciri üzrə direktor

# GİRİŞ

**Təchizatçılarımız üçün Davranış Kodeksində ("Kodeks") "Imperial Brands" şirkətinin təchizatçılarından, yəni birbaşa "Imperial Brands" şirkəti və törəmə şirkətlərimizlə biznes münasibətlərində olan şirkətlər, xidmət təminatçıları və biznes tərəfdaşlarından gözlədiyimiz davranış standartları müəyyən edilir.**

Kodeksdə məsuliyyətli təchizata dair aşağıda qeyd olunan rəhbər prinsiplərimiz müəyyən edilir və məhsul və xidmətləri tələblərə uyğun, dayanıqlı və sosial cəhətdən məsuliyyətli şəkildə əldə etmək üçün təchizatçılarımızla necə işlədiyimiz aydın şəkildə ifadə olunur.

## Kodeks üç sahəni əhatə edir:

**1. Biznes fəaliyyətində dürüstlük** – Təchizatçılarımızdan öz biznes fəaliyyətlərini etik normalara uyğun və məsuliyyətli şəkildə həyata keçirəcəkləri və qüvvədə olan bütün qanun və qaydalara riayət edəcəkləri gözlənilir.

**2. Insan hüquqları və müxtəliflik, bərabərlik və inklüzivlik (MBİ)** – Təchizatçılarımızdan ədalətli və təhlükəsiz iş mühiti təmin edəcəkləri və insan hüquqlarına, müxtəlifliyə, bərabərliyə və inklüzivliyə hörmət nümayiş etdirəcəkləri gözlənilir.

**3. Ekoloji dayanıqlılıq** – Təchizatçılarımızdan planeti qoruyan və ətraf mühitə mənfi təsirləri azaldan siyasət və metodlar tətbiq edəcəkləri gözlənilir.



# GÖZLƏNTİLƏRİMİZ

**Biz təchizatçılarımızdan Kodeksdə müəyyən edilmiş minimum standartlara riayət edəcəklərini və mümkün olduqda və ya müqavilə razılaşmasına əsasən tələb olunduğu təqdirdə daha yüksək standartlar nümayiş etdirəcəklərini gözləyirik. Biz, həmçinin təchizatçılarımızdan öz biznes tərəfdaşlarının Kodeksdə müəyyən edilmiş standartlarla müqayisə edilə bilən standartlara uyğun olmasını təmin etmək üçün səy göstərəcəklərini gözləyirik.**

- “Imperial Brands” şirkəti bu standartları həyata keçirmək üçün “davamlı təkmilləşdirmə” yanaşmasını tətbiq edir. Biz təchizatçılarımızdan Kodeksə uyğun fəaliyyət göstərdiklərini nümayiş etdirə biləcəklərini gözləyirik. Pozuntuya yol verildiyinə dair şübhə olduğu halda, biz təchizatçıdan daxili və ya xarici yoxlama ilə əməkdaşlıq etməyi və təkmilləşdirmələr etməyi xahiş edə bilərik.
- Biz hamımız məsuliyyətli davranışdan, onu cəmiyyətin fəaliyyətini davam etdirməsinin açarı kimi qəbul edərək yararlanırıq və o, həm bizim reputasiyamızı, həm də sizin reputasiyanızı qoruyur. Kodeksə uyğunluq və təchizatçının çatışmazlıqları aradan qaldırmaq istəyi işgüzar münasibətlər qurmaq və ya davam etdirmək qərarımız üçün həlledici əhəmiyyət kəsb edəcək.
- Kodeksdə təqdim olunan məlumat və sizdən gözlənilənlər barədə hər hansı sualınız varsa, satınalma üzrə yerli nümayəndənizlə əlaqə saxlayın.
- Kodeksə uyğun olmayan hər hansı davranışı müşahidə etdiyiniz və ya ondan şübhəniz olduğu halda, bu barədə məlumat verməyinizi tövsiyə edirik.
- ’Speaking Up‘ xidmətimizdən öz əməkdaşlarımız və bütün kənar maraqlı tərəflər, o cümlədən təchizatçılarımız və onların işçiləri istifadə edə bilərlər. Biz sizdən “Speaking Up” (Problemlərin açıq bildirilməsi) xidmətimizi öz əməkdaşlarımız və “Imperial Brands” şirkətinin adından işləyən istənilən üçüncü tərəflər arasında təbliğ edəcəyinizi gözləyirik.
- Problemlərin açıq bildirilməsinə yanaşmamız və problemləri açıq bildirənlərin təqib edilməməsinə dair siyasətimiz haqqında daha ətraflı məlumatı Problemlərin açıq bildirilməsinə dair Siyasətimizdən əldə edə bilərsiniz.





# MƏSULİYYƏTLİ TƏCHİZATA DAİR RƏHBƏR PRİNSİPLƏRİMİZ

**Biz təchizatçılarımız və tərəfdaşlarımızdan ümumi öhdəliyimizə qoşulmalarını xahiş edirik.**



## 1

**Biz qüvvədə olan bütün qanun və qaydalara riayət etməyi öhdəmizə götürürük.**

## 2

**Biz biznesimizin bütün sahələrində məsuliyyətli və dürüst davranmağı öhdəmizə götürürük.**

## 3

**Biz insan hüquqlarına və müxtəliflik, bərabərlik və inklüzivlik (MBİ) prinsiplərinə, o cümlədən hamı üçün ədalətli, sağlam və təhlükəsiz iş yeri hüququna hörmət etməyi öhdəmizə götürürük.**

## 4

**Biz dayanıqlı inkişafa yönəlmiş səylərimiz çərçivəsində davamlı təkmilləşdirmələri təmin etmək üçün təchizatçılarımızla əməkdaşlıq etməklə yanaşı, mal və xidmətləri ekoloji cəhətdən şüurlu və məsuliyyətli şəkildə əldə etməyi öhdəmizə götürürük.**



# MİNİMUM STANDARTLARIMIZ

**Kodeksin bu bölməsində "Imperial Brands" şirkətinin təchizatçılarından riayət edilməsi gözlənilən minimum standartların xülasəsi verilir. Daha ətraflı məlumat növbəti bölmədə təqdim olunur.**

## Biznes fəaliyyətində dürüstlük:

- **Rüşvətxorluq, korrupsiya və vergidən yayınmaya qarşı mübarizə:** Dürüst hərəkət edin və rüşvətxorluq və korrupsiyaya qarşı mübarizə haqqında qanunlara riayət edin.
- **Hədiyyələr və qonaqpərvərlik:** Biznes qərarlarına təsir etmək cəhdi kimi qəbul edilən və ya bu cür hesab oluna bilən hədiyyə, ziyafət və ya qonaqpərvərliyi heç vaxt təklif və ya qəbul etməyin. Qanuni olmadığı və əvvəlcədən təsdiq olunmadığı halda, dövlət və ya hökumət rəsmilərinə hədiyyələr və ya qonaqpərvərlik təklif etməyin.
- **Maraqların toqquşması:** İstənilən faktiki və ya potensial maraqların toqquşması barədə bizə məlumat verin.
- **Gizlilik və məxfilik:** Məxfi və fərdi məlumatlarımızı qoruyun və pozuntu və ya ehtimal olunan pozuntu halında bizi xəbərdar edin.
- **Məsuliyyətli marketinq:** Məhsullarımızı siqaret çəkməyənlərə və ya 18 yaşdan (yaxud yuxarı olarsa, yerli qanuni minimum yaşdan) aşağı olan şəxslərə reklam etməyin və ya satmayın. "Imperial Brands" şirkətinin marketinq standartlarına riayət edin.
- **Qeyri-qanuni ticarət:** Qeyri-qanuni ticarətlə məşğul olmayın və ya onu dəstəkləməyin.
- **Ədalətli rəqabət və antiinhisar fəaliyyəti haqqında qanun:** Antiinhisar fəaliyyəti və rəqabət haqqında qüvvədə olan bütün qanunlara riayət edin; özəl və ya məxfi məlumatlarımızı paylaşmayın.
- **Sanksiyalar və ixracata nəzarət:** Biznesiniz və "Imperial Brands" şirkətinə istənilən mal və xidmətlərinin təchiz edilməsinə aid bütün sanksiyalar haqqında qanunları və ixrac nəzarəti mexanizmlərini araşdırın və onlara riayət edin.

## İnsan hüquqları və müxtəliflik, bərabərlik və inklüzivlik (MBİ):

- **Uşaq əməyi:** Təchizatçılar 13 yaşından kiçik uşaqları işə götürməməli və yerli qanunvericiliyə görə iş üçün minimum yaşdan aşağı heç kəsi işə götürməməlidirlər. Uşaqları təhlükəli işlərdən, eləcə də köləlikdən, insan alverindən və cinsi istismardan qoruyun.
- **Müasir köləlik, məcburi əmək və insan alveri:** Bütün işlər könüllü olaraq yerinə yetirilməlidir. Heç bir işçini təzminat və ya borc asılılığına görə işə götürməyin. Bütün işçilərə şəxsiyyət vəsiqələrini və şəxsi sənədlərini özlərində saxlamağa icazə verin. Hərəkət azadlığına hörmət edin.
- **İş saatları, əmək haqqı və imtiyazlar:** İş saatlarının və əmək haqqının münasib və yerli qanunlara uyğun olmasını təmin edin. İşçilərə vaxtında ödəniş edin və bütün lazımi məzuniyyətləri təmin edin.
- **Ədalətli rəftar, müxtəliflik, bərabərlik və inklüzivlik:** Bütün işçilərlə ləyaqət, hörmət və ədalətlə rəftar edin. İşlə təmin etmədə, vəzifə üzrə irəli çəkmədə və rəhbərlikdə təmsil olunmada müxtəlifliyi, bərabərliyi və inklüzivliyi təşviq edin.
- **Birləşmək azadlığı:** İşçilərin həmkarlar ittifaqlarına qoşulma və ya yaratma və kollektiv sövdələşmə hüququna hörmət edin.
- **Şikayətlərə baxılma mexanizmləri və hüquqi müdafiə vasitələri:** Mümkün hallarda, işçilərə təqib və ya qisas qorxusu olmadan öz şikayət və narazılıqlarını bildirmək üçün məxfi kanal təqdim edin.
- **Sağlamlıq və əməyin təhlükəsizliyi:** İş yerində sağlamlıq və əməyin təhlükəsizliyinə dair tətbiq olunan bütün qanun və qaydalara riayət edin. Obyektlərin təmiz və təhlükəsiz olduğundan əmin olun və işçiləri müvafiq təlim və avadanlıqla təmin edin.

## Ekoloji dayanıqlılıq:

- **Ətraf mühitin mühafizəsinə dair qanunlar:** Biznesinizə ətraf mühitin mühafizəsinə dair şamil olunan qanun və qaydalara riayət edin. İstənilən insident və ya təhlükəli şərait barədə yerli səlahiyyətli orqanlara və/və ya "Imperial Brands" şirkətinin Problemlərin açıq bildirilməsi ("Speaking Up") xidmətinə məlumat verin.
- **Davamlı təkmilləşdirmələr:** Familiarise yourself with Imperial Brands" şirkətinin ESİ strategiyası ilə tanış olun və ekoloji məqsədlərimizə nail olmaq və planeti qorumaq üçün yollar axtarıb tapın.

# BİZNES FƏALİYYƏTİNDƏ DÜRÜSTLÜK



**Məsuliyyətli və dürüst davranmağı “Imperial Brands” şirkətinə uğurlu biznes qurmağa və onu davam etdirməyə imkan vermişdir. Biz təchizatçılarla inam və etibara əsaslanan tərəfdaşlığı yüksək qiymətləndiririk. Bu, biznes fəaliyyətimizin peşəkar və etik normalara uyğun həyata keçirilməsinə görə həm özümüzün, həm də biznes tərəfdaşlarımızın məsuliyyət daşımasına şərait yaradır.**

**“Imperial Brands” şirkətinin təchizatçısı kimi sizdən aşağıdakı standartlara uyğunluğu təmin etməyinizi gözləyirik, lakin bütün hallarda minimum standart olaraq yerli qanunlara riayət etməlisiniz:**

## Rüşvətxorluq, korrupsiya və vergidən yayınmaya qarşı mübarizə

- Bütün işgüzar əlaqələrdə rüşvətxorluğa və korrupsiyaya qarşı dözümsüzlük yanaşmamızı paylaşın və rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizə qanunlarına riayət edin. Biz korrupsiya əməllərinə yol verən təchizatçılardan düzəldici tədbirlər həyata keçirmələrini tələb etmək və onlara qarşı intizam tədbirləri görmək, o cümlədən müqavilə razılaşmalarına xitam vermək hüquqlarımızdan istifadə edəcəyik.
- Heç vaxt rüşvət təklif etməyin, verməyin və ya qəbul etməyin.
- Heç kəsə biznesi qeyri-qanuni olaraq təmin etmək, qorumaq və ya asanlaşdırmaq məqsədi daşıyan dəyərli heç nə (nə qədər kiçik olmasından asılı olmayaraq) təklif etməyin və ya verməyin (məsələn, vergilərin və ya gömrük rüsumlarının azaldılması üçün ödəniş kimi).
- Rüşvət və ya korrupsiya ilə əlaqədar narahatlıq doğuran istənilən hal barədə Qrupun Hüquq şöbəsinə və ya yerli hüquq komandalarına SpeakUp@impbrands.com vasitəsilə və ya onlayn ’Speaking Up‘ (Problemlərin açıq bildirilməsi) xidmətimizdən istifadə edərək məxfi şəkildə məlumat verin.

## Hədiyyələr, əyləncə və qonaqpərvərlik

- “Imperial Brands” şirkətinin Hədiyyələr və Əyləncələrə dair Qaydalarına əsasən, biznes münasibətlərimiz çərçivəsində müsbət reputasiya formalaşdırmaq məqsədilə üçüncü tərəflərə ağlabatan hədlər daxilində və mütənasib olmaqla, qarşılıqlı olaraq hədiyyələr verilməsinə və alınmasına, əyləncə ilə təmin edilməsinə və qonaqpərvərlik göstərilməsinə icazə verilir.
- Biznes qərarlarına təsir etmək cəhdi kimi qəbul edilən və ya bu cür hesab oluna bilən hədiyyə, ziyafət və ya qonaqpərvərliyi işçilərimizə heç vaxt təklif etməyin və ya onlardan qəbul etməyin.
- Qanuni olduğu və icazə verildiyi hallar istisna olmaqla, dövlət və ya hökumət məmurlarına heç vaxt hədiyyələr, əyləncə və ya qonaqpərvərlik təklif etməyin.



**“Bütün işgüzar əlaqələrdə rüşvətxorluğa və korrupsiyaya qarşı dözümsüzlük yanaşmamızı paylaşın və rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizə qanunlarına riayət edin”**

# BİZNES FƏALİYYƏTİNDƏ DÜRÜSTLÜK

## Maraqların toqquşması

- Dürüst və şəffaf davranın və əlaqələr, investisiyalar, iş yerləri və ya maraqların toqquşmasına səbəb ola biləcək istənilən digər məsələ haqqında bizə məlumat verin.
- Bizim üçün iş yerinə yetirərkən hər hansı potensial və ya faktiki maraqların toqquşması halından xəbərdar olsanız (misal üçün, əgər “Imperial Brands” işçisinin sizin şirkətlə maliyyə əlaqəsi varsa və ya işçilərinizdən biri “Imperial Brands“ şirkətinin hər hansı işçisi ilə əlaqəlidirsə) bizə bildirin.
- İstənilən digər faktiki və ya potensial maraqların toqquşması halı sizə məlum olan kimi onun haqqında xəbər verin.

## Gizlilik və məxfilik

- Fərdi məlumatları qoruyun və işçilərimiz, müştərilərimiz və təchizatçılarımızın məxfiliyini təmin etmək üçün Avropa İttifaqının Məlumatların Qorunmasına dair Ümumi Reqlamentinə və məlumatların məxfiliyinə dair qüvvədə olan digər qanun və qaydalara uyğun olaraq müvafiq təhlükəsizlik tədbirləri həyata keçirin.
- “Imperial Brands” şirkətinin məxfi məlumatlarını qoruyun və yalnız onları görməli olanlarla və baxmaq üçün icazəsi olanlarla paylaşın.
- Ehtimal olunan və ya faktiki məlumat sızması və ya məlumatımızın əvvəlcədən icazəmiz olmadan hər hansı üçüncü tərəfə açıqlanması barədə bizə dərhal məlumat verin.
- Məxfi məlumatları qorumaq üçün bizimlə məlumatların açıqlanmamasına və ya məxfiliyə dair bağlanmış istənilən razılaşmaların istifadəsini təmin edin və onlara riayət edin.
- İşçilərimizin, müştərilərimizin və ya təchizatçılarımızın fərdi məlumatlarını işləyirsinizsə, məlumatların işlənilməsinə dair müqavilə bağlayın.

## Məsuliyyətli marketinq

- Ənənəvi (yanan) tütün və ya yeni nəsil (NGP) məhsullarımızı yalnız siqaret çəkən böyüklərə və ya istirahət məqsədilə nikotin məhsullarından istifadə edən böyüklərə reklam edin və ya satın. Böyüklər yaşı 18-dən yuxarı və ya bu məhsulların istehlakı üçün yerli yaş məhdudiyyətindən yuxarı olan istehlakçılardır.
- Brendlərimiz üçün yaratdığınız istehlakçı reklamı/təşviqat materiallarına və tədbirlərinə “Imperial Brands“ Marketinq Standartlarını tətbiq edin. Yerli qanunlar daha yüksək standart tələb etmədiyi halda, üstünlük marketinq standartlarımıza verilir.

## Qeyri-qanuni ticarət

- Heç bir formada qeyri-qanuni ticarətlə məşğul olmayın və ya onu dəstəkləməyin və qeyri-qanuni məhsulların qanuni bazara daxil olmasının qarşısını almaq üçün səlahiyyətli orqanlarla əməkdaşlıq edin.
- Məhsullarımızın qeyri-qanuni ticarəti, o cümlədən brend materiallarımızın istifadə edilməsi ilə əlaqədar istənilən şübhəniz olduqda bizə məlumat verin.



“Ehtimal olunan və ya faktiki məlumat pozuntuları və ya məlumatımızın icazəsiz hər hansı üçüncü tərəflə paylaşılması barədə dərhal bizə məlumat verin”



# *BİZNES FƏALİYYƏTİNDƏ DÜRÜSTLÜK*

## Ədalətli rəqabət və antiinhisar fəaliyyəti haqqında qanun

- Fəaliyyət göstərdiyiniz bazarlarda tətbiq olunan antiinhisar fəaliyyəti və rəqabət haqqında qanunları araşdırın və onlara riayət edin.
- Rəqiblərimizlə yalnız maraqlar toqquşması halı yaranmadığı və “Imperial Brands” şirkətinin məxfi məlumatlarının qorunması və rəqabət haqqında qanunlara riayət edilməsi üçün müvafiq tədbirlərin həyata keçirildiyi hallarda iş aparın.
- Kommersiya baxımından həssas mövzuları, məsələn, istehsal xərclərimizi, qiymətlərimizi, ticarət şərtlərimizi və ya yeni məhsullarımızın bazara çıxarılmasını rəqiblərimizlə müzakirə etməyin.
- Bizimlə rəqiblərimiz arasında vasitəçilik etməyin, o cümlədən rəqiblərimizin kommersiya sirlərini və ya digər məxfi məlumatlarını bizimlə paylaşmayın.

## Sanksiyalar və ixracata nəzarət

- Biznesinizlə əlaqəli olan ixracata nəzarət və ticarət məhdudiyyətlərini anlayın.
- “Imperial Brands” üçün yerinə yetirilən istənilən işdə bütün tətbiq olunan sanksiyalara və ixracata nəzarət mexanizmlərinə riayət edin.

### Problemlərin açıq bildirilməsi

Sizi narahat edən probleminizi onlayn ‘Speaking Up‘ xidmətimizdən istifadə edərək məxfi şəkildə bildirin Problemlərin açıq bildirilməsinə dair Siyasətimizdə sizi narahat edən problemlərin bildirilməsinə dair əlavə təlimatlar və problemləri açıq bildirənlərin təqib edilməməsinə dair siyasətimiz haqqında məlumat təqdim olunur.

Speaking Up



**“Fəaliyyət göstərdiyiniz bazarlarda tətbiq olunan antiinhisar fəaliyyəti və rəqabət haqqında qanunları araşdırın və onlara riayət edin”**

# İNSAN HÜQUQLARI

## Biz işçilərimizin, biznes tərəfdaşlarımızın və fəaliyyət göstərdiyimiz icmaların təhlükəsizliyi, ləyaqəti və rifahını yüksək qiymətləndiririk.

Biz fəaliyyətlərimizin bütün mərhələlərində insan hüquqlarına hörmət edirik və uşaq əməyi, məcburi və ya asılı əməyin istənilən formasına yol verməmək, eləcə də birləşmək azadlığını qorumaq barədə öhdəlik götürmüşük. Biz Ümumdünya İnsan Hüquqları Bəyannaməsini, Birləşmiş Millətlər Təşkilatının Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplərini və Beynəlxalq Əmək Təşkilatının (BƏT) Əsas Prinsiplər və Əmək Hüquqlarına dair Bəyannaməsini rəhbər tuturuq. Ətraflı məlumat üçün bax: “Imperial Brands” şirkətinin İnsan hüquqlarına dair Siyasəti. Biz təchizatçılarımızdan insan hüquqları prinsiplərinə dair öhdəliyimizi bölüşmələrini və ədalətli və təhlükəsiz iş yerlərinin və icmaların təmin edilməsi istiqamətində bizimlə əməkdaşlıq etmələrini gözləyirik.

**“Imperial Brands” şirkətinin təchizatçısı kimi sizdən aşağıdakı standartlara uyğunluğu təmin etməyinizi gözləyirik, lakin bütün hallarda minimum standart olaraq yerli qanunlara riayət etməlisiniz:**

### Uşaq əməyi

- 13 yaşından kiçik uşaqlar işə götürülməməli və yerli qanunvericiliyə görə minimum iş yaşından aşağı heç kəs işə götürülməməlidir.
- Yerli qanunlarla müəyyən edilmiş saatlarda yüngül işlərin yerinə yetirilməsinə icazə verilə bilər, belə şərtlə ki, bu, təhsilə, sağlamlığa və ya fərdi inkişafa mane olmasın.
- 18 yaşına çatmamış şəxslər təhlükəli işlərin yerinə yetirilməsinə cəlb edilməməlidir (yerli qanunvericiliyə uyğun olaraq).
- Uşaqları köləlikdən, insan alverindən və cinsi istismardan qoruyun.

### Müasir köləlik, məcburi əmək və insan alveri

- İşçiləri işə qəbul zamanı məlum olan və anlaşılan şərt və müddəalar əsasında işə könüllü götürün. Yerli qanunlara əsasən tələb olunarsa və ya lazım olarsa, yazılı müqavilə təmin edilməlidir.
- Heç bir işçini işəgötürmə haqqı, işlə təmin etmə haqqı və ya istənilən qəbildən olan borc asılılığı əsasında işə götürməyin.
- Bütün işçilərə öz şəxsi sənədlərini, o cümlədən şəxsiyyət vəsiqələrini və pasportlarını özlərində saxlamağa icazə verin.
- Hərəkət azadlığına hörmət edin.



“Biz işçilərimizin, biznes tərəfdaşlarımızın və fəaliyyət göstərdiyimiz icmaların təhlükəsizliyi, ləyaqəti və rifahını yüksək qiymətləndiririk”

# İNSAN HÜQUQLARI VƏ MBİ

## İş saatları, əmək haqqı və imtiyazlar

- Milli və ya yerli qanunlara, sənaye standartlarına və ya işçilərlə bağlanmış kollektiv sazişlərə (hansı daha çox müdafiə təmin etdiyindən asılı olaraq) uyğun olan qanuni və münasib iş saatları və əmək haqqı təmin edin.
- Əmək haqqını vaxtında və tam ödəyin, əmək haqqından istənilən tutulmaların qanuni, əsaslandırılmış, şəffaf olmasını və qeydə alınmasını təmin edin.
- İşçilərə yerli qanun və qaydalarla tələb olunan bütün məzuniyyətləri, o cümlədən fasilələr, xəstəlik günləri, istirahət günləri və bayram günlərini təmin edin.
- Əlavə iş və ya normadan artıq işin könüllü, qanuni olmasını və iş üçün qüvvədə olan qanunlara uyğun ödəniş edilməsini təmin edin.

## Ədalətli rəftar, müxtəliflik, bərabərlik və inklüzivlik

- İstənilən formada zorakılıq, məcburiyyət, hədə-qorxu, təqib, cinsi qısnama, ayrı-seçkilik və ya hər hansı digər alçaldıcı davranışlardan azad iş yeri təmin etməyə çalışın.
- Bütün işçilərlə ləyaqət, hörmət və ədalətlə rəftar edin.
- İşlə təmin etmədə, vəzifə üzrə irəli çəkmədə və rəhbərlikdə təmsil olunmada müxtəlifliyi, bərabərliyi və inklüzivliyi təşviq edin.
- Mümkün hallarda müxtəlif təchizatçıların olmasını dəstəkləyən satınalma metodlarını təmin etməyə çalışın.

## Müxtəliflik, bərabərlik və inklüzivlik

- İş mühitində müxtəliflik və inklüzivliyin artırılması istiqamətində çalışmaq ümumi vəzifəmizdir. Biz “Imperial Brands” təşkilatında müxtəliflik və inklüzivliyin artırılması istiqamətində məqsədimizə çatmaq üçün çox çalışırıq və həmin səylər çərçivəsində təchizatçılarımızdan öz üzərlərinə düşəni etdiklərini görmək istərdik.
- Biz “Imperial Brands” şirkətinin təchizatçılarını öz təşkilatlarında müxtəlifliyi, bərabərliyi və inklüzivliyi fəal şəkildə qiymətləndirmək, nəzarətdə saxlamaq və təşviq etmək üçün daxili proqramlar yaratmağa çağırırıq.
- Veb-saytımızda müxtəlifliyi, bərabərliyi və inklüzivliyi təşviq etmək üçün hansı işləri həyata keçirdiyimizi buradan öyrənə bilərsiniz.

## Birləşmək azadlığı

- İşçilərin hədə-qorxu və ya təqib qorxusu olmadan öz seçdikləri həmkarlar ittifaqları və ya müəssisə şuraları yaratmaq və ya onlara üzv olmaq və kollektiv sazişlər bağlamaq hüququna hörmət edin.



**“Biz “ITG Brands” təşkilatında müxtəliflik və inklüzivliyin artırılması istiqamətində məqsədimizə çatmaq üçün çox çalışırıq və həmin səylər çərçivəsində təchizatçılarımızdan öz üzərlərinə düşəni etdiklərini görmək istərdik”**



# İNSAN HÜQUQLARI VƏ MBİ

## Şikayətlərə baxılma mexanizmləri və hüquqi müdafiə vasitələri

- Mümkün hallarda, işçiləri təqib və ya qisas qorxusu olmadan öz şikayət və narazılıqlarını bildirmək üçün məxfi daxili mexanizmlə təmin edin. Narahatlıq doğuran problemləri şəffaf, ədalətli və operativ şəkildə araşdırmaq və həll etmək üçün effektiv sistem və daxili proseslər yaratmağı qarşıya məqsəd qoyun.
- Bu mümkün olmadıqda, işçiləri onları narahat edən problemlərini SpeakUp@impbrands.com ünvanına məktub göndərməklə və ya məxfi. 'Speaking Up' xidmətimizdən istifadə etməklə birbaşa "Imperial Brands"-ə bildirməyə təşviq edin.

## Sağlamlıq və əməyin təhlükəsizliyi

- Sağlamlıq və əməyin təhlükəsizliyinə dair tətbiq olunan bütün qanun və qaydalara, qanunvericiliyin tələblərinə və standartlara riayət edin.
- İşçilərin sağlamlıq və təhlükəsizliyi üçün zəruri olan bütün təlimləri, vasitələri və geyimi təmin edin.
- Təhlükəli işlər həmin işləri yerinə yetirmək üçün müvafiq hazırlığı olmayan şəxslər, 18 yaşına çatmamış şəxslər, hamilə qadınlar, süd verən analar və ya ahıl şəxslər tərəfindən yerinə yetirilməməlidir.
- İşçilərin, üçüncü tərəflərin və əhalinin təhlükəli material və maddələrlə təmasını minimuma endirin.
- İşçilər üçün nəzərdə tutulmuş istənilən yaşayış yerlərinin, nəqliyyat vasitələrinin və ya istənilən digər kommunal obyektlərin təhlükəsizliyi, təmizliyi və yararlılığını təmin edin.
- Bizimlə münasibətlərinizlə əlaqəli olan sağlamlıq və təhlükəsizliklə əlaqədar istənilən problemlər barədə "Imperial Brands" şirkətinin satınalma məsələləri üzrə təhkim olunmuş şəxsinə və ya onlayn məxfi 'Speaking Up' xidmətimizdən istifadə edərək dərhal məlumat verin.

### Davamlı təkmilləşdirmə: Daha təhlükəsiz iş yerləri

- Biz "Imperial Brands" şirkətinin təchizatçılarından daha təhlükəsiz iş yerləri və icmaların təmin edilməsinə yönəlmiş davamlı fəaliyyətimizdə bizə qoşulmalarını gözləyirik. Bu minimum tələblərə əlavə olaraq, biz sizə biznesiniz üçün sağlamlıq və əməyin təhlükəsizliyi ilə əlaqədar müvafiq sertifikatları əldə etməyinizi və obyekt, avadanlıq və proseslərin müntəzəm monitorinqinin və auditinin aparılması ilə sağlamlıq və təhlükəsizlik risklərinin müəyyən edilməsi istiqamətində işləməyi tövsiyə edirik.
- Əgər işimizin hər hansı aspektinin daha təhlükəsiz edilə biləcəyini düşünürsünüzsə, bizimlə əlaqə saxlayın.
- Sağlamlıq, əməyin təhlükəsizliyi və rifah üzrə on dünya səviyyəli standartlara nail olmaq öhdəliyimiz haqqında ətraflı məlumat əldə etmək üçün veb-saytımızda Sağlamlıq, əməyin təhlükəsizliyi və rifah siyasətimizlə tanış olun.



> **"Təhlükəli işlər həmin işləri yerinə yetirmək üçün müvafiq hazırlığı olmayan şəxslər, 18 yaşına çatmamış şəxslər, hamilə qadınlar, süd verən analar və ya ahıl şəxslər tərəfindən yerinə yetirilməməlidir"**





# EKOLOJİ DAYANIQLILIQ

**Biz işlərin yerinə yetirilməsi üçün ekoloji cəhətdən dayanıqlı üsullar axtarıb tapmağa çalışırıq. İnsanlarımız, biznesimiz və planetimiz üçün düzgün olanı məhz budur.**

**Əməliyyatlarımız çərçivəsində, aşağıdakıları qarşımıza hədəf qoyuruq:**

- **Emissiyaları 2040-cı ilə qədər sıfıra çatdırmaq**
- **Poliqonlara yerləşdirilən tullantıları 2025-ci ilə qədər sıfıra çatdırmaq**
- **Meşələrin qırılmasını 2025-ci ilə qədər sıfıra çatdırmaq**

**Ekoloji öhdəliklərimiz və hədəflərimiz haqqında ətraflı məlumatı “Imperial Brands” şirkətinin ekoloji, sosial və idarəetmə strategiyasından əldə edə bilərsiniz.**

**Sizi ətraf mühitə təsirlərinizi məsuliyyətlə idarə etməklə biznesimizin ətraf mühitə təsirini azaltmaq istiqamətində həyata keçiridiyimiz fəaliyyətə qoşulmağa dəvət edirik. “Imperial Brands” şirkətinin təchizatçısı kimi siz minimum olaraq aşağıdakı standartlara uyğunluğu təmin etməlisiniz:**

- Biznesinizə ətraf mühitin mühafizəsi ilə əlaqədar şamil olunan bütün qanun və qaydalara riayət edin.
- Zəruri bərpaetmə işlərini həyata keçirin, lazım olduqda müvafiq səlahiyyətli orqanlara məlumat verin, habelə biznesimizlə əlaqədar olan və ətraf mühitə mənfi təsir göstərən və ya mənfi təsir göstərə bilən istənilən insidentlər barədə bizi xəbərdar edin.
- Biznesimizlə əlaqədar olan və ətraf mühitə zərər vura və ya başqa şəkildə mənfi təsir göstərə bilən istənilən proses və ya şərait barədə bizə məlumat verin.





# *EKOLOJİ DAYANIQLILIQ*

## Davamlı təkmilləşdirmə: Ekoloji dayanıqlılıq

**Sizi minimum standartlarımızla məhdudlaşmayaraq ekoloji məqsədlərimizə nail olmağa və planetimizi qorumağa kömək edə biləcək təşəbbüslər irəli sürməyə çağırırıq:**

### Emissiyalar

- Biznes fəaliyyətiniz çərçivəsində 1-ci, 2-ci və 3-cü kateqoriyalı emissiyaların həcmini azaldın.

### Tullantılar

- Biznes fəaliyyətiniz nəticəsində formalaşan tullantıların təsirini azaldın.
- Məhsulları layihələndirərkən tullantıları azaltma imkanlarını nəzərə alın.
- Qablaşdırmanın təkrar emal və təkrar istifadə imkanını artırın.
- Poliqonlarda yerləşdirilən tullantıların miqdarını azaltmaq və tullantıların təhlükəsiz və səmərəli utilizasiyasını və ya təkrar emalını təmin etmək istiqamətində fəal işlər həyata keçirin.

### Dayanıqlı tərkib hissələri, materiallar və metodlar

- Zəruri hallar istisna olmaqla, xam və təkrar emal edilməyən materiallardan asılılığı azaldın.
- Təbii ehtiyatların istehlakını nəzarətdə saxlayın və optimallaşdırın.
- Kənd təsərrüfatında tətbiq olunan zəhərli və zərərli kimyəvi maddələri mümkün olduqda təbii və təhlükəsiz alternativlərlə əvəz edin.
- Təchizatçılarınızla birlikdə təbii ehtiyatlardan məsuliyyətlə istifadə olunmasını təmin edin.

### Meşələrin qırılması və biomüxtəliflik

- Fəaliyyətiniz çərçivəsində meşələrin qırılmasının təsirini minimuma endirməyə çalışın.
- Yaşayış mühitlərinin yox olmasının qarşısının alınması və nəsli kəsilməkdə və ya təhlükə altında olan növlərin qorunması da daxil olmaqla, biomüxtəlifliyin qorunması və artırılması üçün tədbirləri araşdırın.
- Meşələrin qırılması riski ilə əlaqədar məhsullar üçün meşələrin qırılmasına münasibətdə kompleks yoxlamaların aparılması haqqında müvafiq qanunlara uyğunluğu təmin edin və kompleks yoxlama aparmaq və yeni əlaqədar qanunlar qəbul olunanadək tədarük zəncirinizdə riskləri və ya problemləri aradan qaldırmaq üçün proseslər qurun.

### Siyasət, monitorinq və məlumatlandırma

- Ekoloji siyasət və idarəetmə sistemi tərtib edin.
- Ekoloji göstəriciləri hədəf müəyyən etmə təşəbbüslərinə, məsələn "Elmi cəhətdən əsaslandırılmış hədəflər" üzrə təşəbbüs kimi hədəf müəyyən etmə təşəbbüslərinə uyğun olaraq ətraf mühitlə bağlı fəaliyyətləri ölçmək, nəzarətdə saxlamaq və davamlı surətdə təkmilləşdirmək üçün əsas fəaliyyət göstəricilərini müəyyən edin.
- Karbon tullantılarına dair məlumatların açıqlanması layihəsi üçün illik məlumatların təqdim olunmasında iştirak edin.





# YOXLAMA VƏ DAVAMLI TƏKMİLLƏŞDİRMƏ

**Biz təchizatçılarımızdan Kodeksdə müəyyən edilmiş standartlara riayət etmələrini gözləyirik. Qeyd olunanlara lazımi proseslərin və nəzarət tədbirlərinin həyata keçirilməsi, habelə ölçülə bilən irəliləyiş haqqında hesabatların təqdim edilməsi daxildir.**

Standartlarımızın tətbiq edilməsi ilə əlaqəli davamlı təkmilləşdirmə yanaşmamız çərçivəsində, biz ayrı-ayrı hallarda praktiki metodların təkmilləşdirilməsi və problemlərin həll edilməsi istiqamətində sizinlə birgə işləyəcəyik. Kodeksi poza biləcəyini ehtimal etdiyimiz fəaliyyətləri qəbul etməyəcəyik və ya nəzərə almayacağıq.

**“Imperial Brands” şirkətinin təchizatçısı olaraq sizdən aşağıdakılar gözlənilir:**

- Kodeksə uyğunluq baxımından şirkətinizdə aparılması tələb olunan hər hansı daxili və ya xarici yoxlama, qiymətləndirmə və ya auditlə əməkdaşlıq etmək.
- Çatışmazlıqlar və ya problemlər aşkar olunduğu təqdirdə onların təsirini azaltmaq və ya aradan qaldırmaq üçün tədbirləri vaxtında razılaşdırmaq və həyata keçirmək məqsədilə bizimlə əməkdaşlıq etmək.

Təchizatçılar anlamalıdırlar ki, Kodeksdə müəyyən olunmuş standartlara uyğunluq və təchizatçının istənilən çatışmazlıqları dərhal aradan qaldırmağa hazır olması həmin təchizatçının “Imperial Brands” şirkəti ilə biznes münasibətlərinə başlaması və ya mövcud biznes münasibətlərinin davam etdirilməsinə dair qərarımız üçün mühüm amillər olacaq. Bəzi hallarda Kodeksə riayət olunmadıqda düzəldici tədbirlər tələb oluna, o cümlədən müqavilə üzrə razılaşmalara xitam verilə bilər.





# PROBLEMLƏRİN AÇIQ BİLDİRİLMƏSİ

**Biz “Imperial Brands” daxilində və təchizatçılarımızla münasibətlərimizdə açıqlığı və şəffaflığı təşviq edirik. Qanunun və ya Təchizatçıları üçün Davranış Kodeksinin pozulması ilə əlaqədar narahatlığınız və ya şübhəniz varsa, bunu açıq bildirməyinizi istəyirik.**

## Bizimlə əlaqə saxlayın:

**Imperial Brands Plc, 121 Winterstoke Road, Bristol BS3 2LL, United Kingdom**
**Tel: +44 (0) 117 963 6636**
**Email:** SpeakUp@impbrands.com

ITGB-nin məlumat vermə üçün ayrıca xətti var:

**ITG Brands Speaking Up**
**714 Green Valley Road**
**Greensboro, NC 27408**
**Tel: +1 866 447 6092**

### Problemlərin açıq bildirilməsi

Sizi narahat edən probleminizi onlayn ‘Speaking Up’ xidmətimizdən istifadə edərək məxfi şəkildə bildirin. Problemlərin açıq bildirilməsinə dair Siyasətimizdə sizi narahat edən problemlərin bildirilməsinə dair əlavə təlimatlar və problemləri açıq bildirənlərin təqib edilməməsinə dair siyasətimiz haqqında məlumat təqdim olunur.

Speaking Up

## Əlavə məlumat və resurslar

“Imperial Brands” şirkətinin veb-saytı: www.imperialbrandsplc.com



